**Auditorlar Palatası tərəfindən rəqəmsallaşma sahəsində görülmüş işlər barədə**

**H E S A B A T**

**Şəxsi kabinet sistemi:**

1) Şəxsi kabinet sistemində müntəzəm olaraq hesabatların təhlili və onların avtomatik olaraq yaradılması prosedurlarının korrektəsi;

2) “Xəbərlərin idarə edilməsi” panelinin təkmilləşdirilməsi məqsədilə “Yaranma tarixi” və “PDF”, “JPEG” faylların yüklənilməsi funksiyalarının korrektəsi;

3) “Müqavilələrin/Rəylərin qeydiyyatı” bölməsində yeni müqavilə yaradarkən müqavilənin tarixinin avtomatik olaraq cari günün tarixi şəklində göstərilməsi və cari gündən 10 gün əvvəlki tarixə aid müqavilələrin qeydiyyata alınması funksiyasının məhdudlaşdırılması;

4) Kibertəhlükəsizliyin təmin olunması istiqamətində aşağıdakı işlər görülmüşdür:

- 5 kiberhücumun qarşısının alınması;
- Müntəzəm olaraq serverin viruslardan təmizlənməsi;
- SSL sertifikatının yenidən quraşdırılması;
- Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən aparılmış təhlükəsizlik auditi ilə əlaqədar qarşıya qoyulmuş tələblərin icra edilməsi;
- Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən yaradılmış müvafiq sistemlərdə aidiyyatı üzrə sistemlərin iş prosesləri barədə müntəzəm olaraq hesabatların verilməsi.

5) Auditi aparılmış təsərrüfat subyektləri panelinin yenilənməsi və maliyyə hesabatlarının aparılmış auditlərinin görünməsi ilə əlaqədar müvafiq düzəlişlərin sistemə əlavə edilməsi;

6) “İstifadəçilər” bölməsində bütün istifadəçilərin məlumatlarının şifrələnməsi;

7) Sistemdə “Dövlət satınalması” funksiyasının yaradılması və auditorlar tərəfindən müqavilələrin Dövlət satınalınmasına uyğun olub-olmamasının sistemdə qeydiyyatının aparılması;

8) Palata Şurasının “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin minimum hədləri barədə” 2022-ci il 03 oktyabr tarixli 348/1 nömrəli qərarını nəzərə alaraq sistemdə dövriyyə bölməsinin yenilənməsi və yeni funsionallığın yaradılması istiqamətində müvafiq işlərin aparılması;

9) 2023-ci il üçün sistemin hazırlanması məqsədilə 2023-ci il funksionallığının bütün alt sistemlərə əlavə edilməsi;

10) Sistemdə il ərzində yaranmış nasazlıqların müntəzəm olaraq aradan qaldırılması (ən çətin hal olaraq sistemin 3 gün ərzində işləməməsi).

**Auditorun sertifikatlaşdırma və icazələrin verilməsi sistemi:**

1) Yeni sistem yaradılaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təsdiq etdiyi "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022–2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın 2.5 "Dövlət orqanları (qurumları) tərəfindən göstərilən elektron xidmətlərdən istifadənin səmərəliliyinin artırılması məqsədilə Vahid Giriş (Login) Sisteminin bütün dövlət informasiya ehtiyatlarında və sistemlərində tətbiqi ilə bağlı təkliflərin təqdim edilməsi" və 2.6 "Yerli icra hakimiyyəti orqanları tərəfindən göstərilən elektron xidmətlərin sayının artırılması və səmərəliliyinin yüksəldilməsi məqsədilə həmin xidmətlərin Elektron Hökumət Portalına inteqrasiya olunmuş vahid rəqəmsal icra hakimiyyəti portalı üzərindən göstərilməsi" bəndlərini nəzərə almaq məqsədilə cari ilin 17 noyabr tarixində Elektron Hökümətin İnkişaf Mərkəzinə məktub göndərilmiş və məktubun icrasına dair cari ilin 1 dekabr tarixindən etibarən müvafiq işlərin görülməsi həyata keçirilir;

2) Sistemin il ərzində həm dizayn cəhətdən, həm də, funksionallıq cəhətdən təkmilləşdirilməsi müntəzəm olaraq həyata keçirilir;

3) Sistem artıq tam hazırdır və fevral ayından etibarən ictimaiyyətə istifadə üçün veriləcəkdir.

**Ölkədə auditin rəqəmsallaşması ilə əlaqədar Palata tərəfindən qəbul edilmiş sənədlər:**

1) Palata Şurasının "Uçot və hesabatın tərtib olunması proseslərinin avtomatlaşdırılması Strategiyası barədə" 2022-ci il 04 aprel tarixli 342/4 nömrəli qərarının qəbul olunması və həmin Strategiyaya uyğun olaraq işlərin həyata keçirilməsi;

2) Palata Şurasının "PL/TMM üzrə risklərin müəyyən edilməsinə dair proqram təminatı barədə" 2022-ci il 28 iyul tarixli 346/3 nömrəli qərarının qəbul edilməsi və hazırlanmış proqramın Palata üzvləri olan sərbəst auditorlar və auditor təşkilatlarına istifadə edilməsi üçün verilməsi;

3) Palata Şurasının "Auditorlar tərəfindən istifadə oluna biləcək audit üzrə proqramlara dair məlumat barədə" 2022-ci il 03 oktyabr tarixli 348/4 nömrəli qərarının qəbul edilməsi və hazırlanmış materialın Palata üzvlərinin yararlanması üçün Palatanın rəsmi internet saytında və auditorun şəxsi kabineti sistemində dərc olunması;

4) Palata Şurasının "Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair yardımçı proqramlar barədə təlimata dair" 2022-ci il 19 oktyabr tarixli 349/2 nömrəli qərarının qəbul edilməsi və hazırlanmış materialın Palata üzvləri tərəfindən istifadə edilməsi üçün Palatanın rəsmi internet saytında və auditorun şəxsi kabineti sistemində dərc olunması.

**Hörmətlə,**

**İdarə rəisi** **Qoşqar Əhmədov**